Ümumi məlumat	**Fənnin adı, kodu və kreditlərin sayı**	HIST215 İslam mədəniyyəti tarixi, 6 AKTS
	Departament	Tarix və Arxeologiya departamenti
	Proqram (bakalavr, magistr)	Bakalavr
	Tədris semestri	2021/22-ci tədris ilinin yaz semestri
	Fənni tədris edən müəllim (lər)	PhD., dos., Rəşad Mustafa
	E-mail:	reshadmustafa@gmail.com
	Telefon:	
	Mühazirə otağı/Cədvəl	
	Məsləhət saatları	**Müəllimin təyin etdiyi vaxtda**
Prerekvizitlər	**Yoxdur**	
Tədris dili	**Azərbaycan dili**	
Fənnin növü (məcburi, seçmə)	**Seçmə**	
Dərsliklər və əlavə ədəbiyyat	1. Qurbanov Abbas. İslam tarixi. II cild. Bakı, 2009 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013 3. Q.E. fon Qrünebaum. Klassik İslam tarixinə dair oçerk. Bakı, 1998 4. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010 5. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. 6. Sabri Hizmetli. İslam Tarihi (İlk dönem). Ankara, 2006 7. Yıldız H.D. Doğuştan Günümüze Büyük İslam Tarihi. Dərs vəsaiti. İstanbul: "Çağ yayınları", 1986, I-XIV cild 8. Əsməd Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 2013 9. Erdoğan Merçil. Müslüman türk devletleri tarihi. İstanbul: Bilge Kültür Sanat, 2013 10. Hasan İ.H. Siyasi-dini-kültürel-sosyal İslam tarihi. Dərs vəsaiti. İstanbul: "Kayıhan yayınevi", 1985. I-VI cild 11. S. Frederik Star. İtirilmiş Maarif. Bakı, 2017 12. Kamuran Gürün. Türkler ve türk devletleri tarihi. Ankara: Karacan yayınları, 1981 13. Nesimi Yazıcı. İlk Türk-İslam devletleri tarihi. Ankara: AÜİF yayınları, 1992 14. Hüseyn Yurdaydın. İslam tarihi dersleri. Ankara, 1971 15. Cook M. The New Cambridge History of Islam. Dərs vəsaiti. Cambridge: "Cambridge University", 2010, I-VI cild. 16. Kennedy H. The Prophet and the age of the caliphates: the Islamic Near East from the Sixth to the Eleventh Century. Monoqrafiya. London: "Longman", 1986, 424 s.	
Kursun təsviri və məqsədi	"İslam tarixi" Azərbaycan Respublikasının bəzi ali tarix təhsili sistemində tədris olunan fənnlərdəndir. Fənnin tədrisini zəruri edən əsas amillər – müasir dünyanın problemləri içərisində qloballaşma şəraitində sivilizasiyaların ünsiyyəti və ya toqquşması məsələsinin aktuallaşması, Azərbaycan mədəniyyətinin mənəvi dinamikalarının əsasları, dinin millət əmələ gətirmədə rolu, cəmiyyət və din məsələləri kimi amillərdir. Fənnin məqsədi – İslam tarixinin orta əsrlərinin sosial elmlərin bir sahəsi kimi tarix elminin metodları çərçivəsində öyrənilməsi ilə yanaşı İslam sivilizasiyasının təşəkkül prosesinə təsir etmiş amillər haqqında biliklər sisteminin yaradılmasıdır. Fənnin vəzifəsi – tələbələrdə İslam tarixi və sivilizasiyasının orta əsrlərinin dünya tarixi və sivilizasiyasında yeri haqqında təsəvvür yaratmaqdır. İslam tarixinin tədqiqi və tədrisi ali tarix təhsilinin zəruri tərkib hissəsidir. Tədris olunan kursun başlıca məqsədi - tələbələrdə İslam tarixi haqqında elmi bilikləri formalaşdırmaqdır.	

<table>
<tr><td>Tədrisin (öyrənmənin) nəticələri</td><td colspan="3">Fənnin ümumi tədrisi prosesində tələbələr:
• İslamın yarandığı mühitin sosial, iqtisadi, siyasi və dini strukturunu
• Məhəmməd peyğəmbərin şəxsiyyəti və fəaliyyətlərini
• İslamın ilk dövrlərində qeyri-müsəlmanlarla münasibətlərin hüquqi, sosial, iqtisadi, dini, mədəni aspektlərini
• Ərəbistan yarımadasının islamlaşma prosesini
• İslam xilafətinin idarəetmə mexanizminin inkişaf tarixini
• İslam fəthlərinin dini-siyasi, mədəni səbəb və nəticələrini
• İslam sivilizasiyasının ilkin təşəkkül prosesini
• Cahiliyyət, Məhəmməd Peyğəmbər, Raşid xəlifələr dövründə, Əməvilər, Abbasilər, Əndəlus Əməviləri, Fatimilər, Əyyubilər kimi İslam tarixi dövlətlərində baş vermiş mühüm tarixi, mədəni hadisələri
• Cahiliyyət, Məhəmməd Peyğəmbər, Raşid xəlifələr dövründə, Əməvilər, Abbasilər, Əndəlus Əməviləri, Fatimilər, Əyyubilər dövlətlərində baş vermis mədəni prosesləri
• Qaraxanlılar, Qəznəvilər, Səlcuqlular, Məmlük sultanlığı, Osmanlılar, Azərbaycanda yaranmış islam dövlətlərindəki mühüm mədəni prosesləri
• Qaraxanlılar, Qəznəvilər, Səlcuqlular, Məmlük sultanlığı, Osmanlılar, Azərbaycanda yaranmış islam dövlətlərinin mühüm mədəni prosesləri
• Orta əsr və yeni dövr İslam dövlətlərində qeyri-müsəlmanlarla münasibətlərin hüquqi, sosial, iqtisadi və dini aspektlərini, bir-birləri ilə mədəniyyət təmaslarını
• İslam dövlətlərində idarəetmə mexanizminin inkişaf tarixini
• İslam dövlətləri arasındakı əlaqələrin iqtisadi, siyasi, dini, mədəni səbəb və nəticələrini
• İslam sivilizasiyasının, mədəniyyətinin orta əsrlər və yeni dövrdəki inkişaf prosesini öyrənəcək</td></tr>
<tr><td rowspan="5">Tədris metodları</td><td colspan="2">Mühazirə</td><td>X</td></tr>
<tr><td colspan="2">Qrup müzakirəsi</td><td>X</td></tr>
<tr><td colspan="2">Praktiki tapşırıqlar</td><td>X</td></tr>
<tr><td colspan="2">Praktiki məsələnin təhlili</td><td>X</td></tr>
<tr><td colspan="2">Digər</td><td>X</td></tr>
<tr><td rowspan="5">Qiymətləndirmə</td><td>Komponentləri</td><td>Tarix/son müddət</td><td>Faiz (%), bal</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>30 bal</td></tr>
<tr><td>Aktivlik</td><td>Semestr ərzində</td><td>10 bal</td></tr>
<tr><td>Yoxlama yazı işi (quiz)</td><td>Aralıq imtahanı öncəsi
Final imtahanı öncəsi</td><td>10 bal</td></tr>
<tr><td>Yazı işi-esse</td><td>Semestr ərzində</td><td>10 bal</td></tr>
<tr><td>Final imtahanı</td><td>İyun</td><td>40 bal</td></tr>
</table>

	Yekun		**100 bal**
Qaydalar (Tədris siyasəti və davranış)	**Aktivlik** Dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi seminarlarda fəal iştiraka görə qiymətləndirilir. **Kurs işi, layihə və tapşırıqlar** **(Mövzular əlavə olunur).** **Yazı işinə aid qaydalar:** 1. İş ayrıca vərəqlərdə yazılmalıdır. Kağızın formatı A4, şirifti 14, interval 1, işin həcmi 10-15 səhifə olmalıdır. 2. Vərəqin bir üzü yazılmalı, vərəqə nömrələr qoyulmalıdır. 3. İş aydın yazılmalı, fikirlərin abzaslara bölünməsi məntiqi olmalıdır, hər yeni fikirdə abzasdan istifadə edilməlidir. İşin girişi və nəticəsi olmalıdır. 4. İş yazılarkən mənbələrə istinad edilməlidir. İstinad qaydaları müəllim tərəfindən təqdim olunacaqdır. 5. Sonda istifadə olunmuş ədəbiyyatın siyahısı əlavə edilməlidir. 6. İşin titul vərəqi olmalıdır: mövzunun adı, tələbənin adı, soyadı, fakültəsi, işin yerinə yetirildiyi departament göstərilməlidir. **Yoxlama işi** Kurs boyu iki yoxlama yazı keçirilməsi nəzərdə tutulur. Birinci yazı aralıq imtahanı öncəsi, ikincisi yekun imtahan qabağı. Hər yoxlama işi 5 bal ilə qiymətləndirilir. Müəllimə və dekanlığa məlumat verilən üzrlü səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər. Yoxlama işində iştirak etməyən tələbə qeyri-müvəffəq qiymət alır. Əgər tələbə üzürlü səbəbdən yoxlama işində iştirak edə bilməmiş və bu haqda dekanlığa məlumat vermişsə, o zaman həmin tələbə yoxlama işini növbəti həftə yaza bilər. **Davamiyyət** Tələbələrin Microsoft Teams platformasında bütün online dərslərdə iştirakı zəruridir. Tələbələr müəyyən səbəblərdən dərslərdə iştirak edə bilmirsə, (xəstəlik, ailə vəziyyəti və s.) bu haqda məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. Online dərslərin 25%-də iştirak etməyən tələbə imtahana buraxılmır. **İmtahanlar** Aralıq və yekun imtahanının mövzuları tələbələrə imtahandan əvvəl verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmır. **İmtahan qaydalarının pozuntuları** Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişinin pozulması, imtahanda istifadəsinə yol verilməyən əlavə vəsaitlərdən (kitab, konspekt-dəftər, mövzunun yazıldığı vərəq, telefon, diktofon, mikrodinləyici qurğu və s.) istifadə edilməsi və köçürmə qadağandır. Bu qaydaya əməl etməyən tələbə imtahan zalından çıxarılır, onun imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymətlə imtahandan kənarlaşdırılır. **Fənni bitirmək qaydası** Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər. **Tələbələrin davranış qaydaları** Dərs zamanı dərs prosesini və etik qaydaları pozmağa, həmçinin, tələbələr arasında dərsdənkənar müzakirələrə icazə verilmir. Online dərsi yalnız müəllim özü başlada bilər, tələbələr Microsoft Teams platfomasında cədvəl üzrə təyin olunmuş dərsi başlada bilməzlər.		
Cədvəl (dəyişdirilə bilər)			

Həftə	Tarix (planlaşdırılacaq)	Fənnin mövzuları	Dərslik / Tapşırıqlar (əlavə olunacaq)
1		**Mövzu 1. *Sillabusla tanışlıq.* Cahiliyyət dövründə sosial, iqtisadi, siyasi, dini, mədəni vəziyyət.** **Qısa icmalı:** Ərəbistan yarımadasının coğrafi xüsusiyyətləri. Ərəblərin mənşəyi və qismləri. İslama qədərki dövr Ərəbistan yarımadasında siyasi vəziyyət. Cənubi Ərəbistanda qurulan dövlətlər. Məin, Səbə, Himyəri dövlətləri. Şimali Ərəbistanda qurulan dövlətlər: Nəbati, Tədmur, Qəssani, Hirə və Kində dövlətləri. Hicaz, Məkkə və Kəbə. İqtisadi həyat və ticarət. Ərəbistan yarımadasında İslama qədərki dövrdə dini, mədəni mozaika.	1. Sabri Hizmetli. Islam tarihi. Ankara, 1991. s.45-78 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.17-65 3. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. S.154-161 4. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.37-42
		Mövzu 2. Məhəmməd Peyğəmbər dövründə Ərəbistan yarımadası **Qısa icmalı:** Məhəmməd peyğəmbərin qəbilə və ailəsi. Məhəmməd peyğəmbərin İslama qədərki peşəsi və cəmiyyətdəki rolu. Məhəmməd peyğəmbərin dini həyatı. Kəbə hakimliyi. İlk vəhy və ilk müsəlmanlar. Məkkəlilərin İslama dəvəti. Həbəşistana hicrətlər. Qüreyşin boykot elan etməsi. Hüzn ili. Taif səfəri. İsra və Merac hadisələri. Əqəbə biətləri. Mədinəyə hicrət. Mədinə müqaviləsi və Mədinədə ilk fəaliyyətlər. Qüreyş qəbiləsi ilə münasibətlərdə hərbi mərhələ: Bədr, Uhud və Xəndək. Hüdeybiyə müqaviləsi və Məkkənin fəthi. Digər ərəb qəbilələri ilə münasibətlər. Yəhudilərlə münasibətlər. Bizans və xristianlarla münasibətlər. Elçilər ili və İslamın Ərəbistan yarımadasında yayılması. İslamın yayılmasının Ərəb mədəniyyətinə təsiri	1. Sabri Hizmetli. Islam tarihi. Ankara, 1991. s. 79-189 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.7-18 3. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. S.161-166 4. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.42-48

2		**Mövzu 3. Raşid xəlifələr dövrü siyasi və mədəniyyət tarixi – 1** **Qısa icmalı:** Əbu Bəkrin ilk xəlifə olaraq hakimiyyətə gəlməsi. İrtidad və irtica müharibələri. Qur'anın toplanması məsələsi. Sasani və Bizans istiqamətində fəthlərin başlanğıcının qoyulması. Ömər ibn Xəttabın hakimiyyətə gəlməsi. Bizans və Sasani imperatorluqlarına qarşı İslam fəthlərinin artması. Ömər ibn Xəttab dövrü dövlətin qurumlaşması prosesi. İqtisadi reformlar və Divan təşkilatı. Kufə şəhərinin inşası. Mədəni proseslər	. Sabri Hizmetli. Islam tarihi. Ankara, 1991. s.189-207 2. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.30-109 3. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.82-146 4. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.48-62
		Mövzu 4. Raşid xəlifələr dövrü siyasi və mədəniyyət tarixi - 2 **Qısa icmalı:** Osman ibn Əffanın xəlifə seçilməsi. Xilafətin siyasi coğrafiyasının genişlənməsi. Müsəlmanlar Aralıq dənizində və ilk dəniz fəthləri. Qur'an nüsxələrinin çoxaldılması. Qurani Kərim mədəni inkişafın göstəricisi kimi. Əli ibn Əbu Talibin hakimiyyətə gəlməsi. Xilafətdə paytaxt dəyişikliyi. Həsən ibn Əlinin hakimiyyəti	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.30- 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.82 3. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.48-62 4. Sabri Hizmetli. Islam tarihi. Ankara, 1991. s.207-224

3		**Mövzu 5. Əməvilər dövrü siyasi və mədəniyyət tarixi - 1** Qısa icmalı: Müaviyə ibn Əbu Süfyanın hakimiyyətə gəlməsi. Xilafətdə vəliəhdlik üsulunun tətbiqi. Bizans mədəniyyəti və İslam dövlətinin qarşılaşması. Mərvanilər dövrü. Əbdülməlik ibn Mərvanın dövrü. Daxili sabitliyin bərpa olunması. Əbdülməlik ibn Mərvanın islahatları. Mədəniyyət sahəsində yeniliklər.	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.109-185 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.151-239 3. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.62-71 4. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. S.166-171
		Mövzu 6. Əməvilər dövrü siyasi və mədəniyyət tarixi - 2 **Qısa icmalı:** Vəlid dövrü Orta Asiya, Yaxın Şərq, Şimali Afrika və Əndəus fəthləri. Süleyman ibn Əbdülməlikin hakimiyyəti və İstanbul mühasirəsi. Ömər ibn Əbdüləzizin daxili siyasəti. Yezid ibn Əbdülməlik dövrü və Abbasi dəvətinin başlaması. Hişam ibn Əbdülməlik dövrü Zeyd ibn Əli üsyanı. Bizansla münasibətlər. Son dövr Əməvi xəlifələri: Vəlid ibn Yezid, Yezid ibn Vəlid, İbrahim ibn Vəlid. Mərvan ibn Məhəmmədin hakimiyyəti və Əməvilərin süqutu. Əməvilər dövründə dini elmlərin inkişafı. Əməvilər dövründə tərcümə fəaliyyətləri. Şeir. Memarlığın inkişafı. Dini memarlıq nümunələri kimi Qübbətus-səhra, Məscidul-əqsa və Dəməşq Əməvi Məscidi. Əməvilər dövrü mülki memarlıq. İncəsənətin digər sahələri.	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.109-185 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.151-239 3. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.62-71 4. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. S.166-171 5. Hüseyn Yurdaydın. İslam tarihi dersleri. Ankara, 1971. S.19-34
4		**Mövzu 7. Abbasilər dövrü siyasi və mədəniyyət tarixi** - 1 Abbasi üsyanı. Əbu Müslim əl-Xorasaninin fəaliyyətləri. Əbül-Abbas Səffah ilk Abbasi xəlifəsi kimi. Mənsur və Bağdadın qurulması. Harun ər-Rəşid dövrü və Bərməki vəzir ailəsi. Harun ər-Rəşid dövründə mədəniyyət. Əmin,	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.201-243 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.239-399

		Məmun və Mötəsimin hakimiyyət dövrləri və qeyri-ərəblərin mübarizəsi.	3. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.76-84 4. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. S.171-186
		Mövzu 8. Abbasilər dövrü siyasi və mədəniyyət tarixi - 2 Türklərin siyasi nüfuzu və Samirə dövrü. Samirə şəhərinin inşası. Büveyhi hakimiyyəti. Abbasi xəlifələri Səlcuqlu hakimiyyətində. Monqol yürüşləri və Abbasilərin süqutu. Abbasilərdə idarəetmə və siyasi təşkilatlar.. Abbasilərdə hərbi struktur. Abbasilərdə ədliyyə qurumları. İslam mədəniyyətinin qızıl dövrü. Tərcümə fəaliyyətləri. Təbiət elmlərinin təşəkkülü. Dəqiq elmlərdə inkişaf. Dini elmlərin inkişafı. Beytülhikmə və fəaliyyətləri. İctimai və iqtisadi həyat. İncəsənət və memarlıq	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.201-243 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.239-399 3. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.76-84 4. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. S.171-186 5. Hüseyn Yurdaydın. İslam tarihi dersleri. Ankara, 1971. 34-51
5		**Mövzu 9. Əndəlus Əməvilərinin siyasi və mədəniyyət tarixi** **Qısa icmalı:** Əməvilər dövlətinin süqutundan sonra Əndəlüsda siyasi hakimiyyət uğrunda mübarizələr. I Əbdürrəhman və əmirliyin qurulması. Əməvi-Fatimi münasibətləri. III Əbdürrəhman dövrü və əmirlikdən xilafətə keçid. Xilafətin süqutu. Sosial qurumlar. Elmi həyat. İncəsənət və memarlığın inkişafı. Kordova məscidi dini memarlıq nümunəsi kimi. əl-Hamra sarayı və mülki memarlıq. Əndəlüsdə şeir və ədəbiyyat.	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.185-201 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.447-473

		Mövzu 10. Fatimilər dövlətinin siyasi və mədəniyyət tarixi **Qısa icmalı:** Fatimi dailərin şimali Afrika və Yəməndə fəaliyyətləri. Aralıq dənizi hövzəsində Əndəlüs-Fatimi rəqabəti. Fatimilərin Misir və Suriyanı ələ keçirməsi. Fatimilərdə vəzirlik dövrü. Dövlətin süqutu. İdarəetmə və siyasi təşkilatlar. Siyasi idarəetmədə dailik qurumunun yeri. Vəzirlik. Ədliyyə qurumları. Sosial struktur və qeyri-müsəlmanların rolu. Hərbi mexanizm və ordu tərkibi. Elmin inkişafı. Darülelm və Əzhərin funksiyaları. İncəsənət və memarlıq.	1. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.405-414 2. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.76-84 3. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. S.88-91
6		**Mövzu 11. Xaç yürüşləri. Zəngilər** **Qısa icmalı:** Xaç yürüşlərinin başlanması. Səlcuqlularla mübarizə. Xaçlı dövlətlərin yaranması. Zəngilərin meydana gəlməsi. Zəngilərin xaçlı dövlətlərlə mübarizəsi. Xaç yürüşləri Qərb-Şərq mədəniyyətlərinin qarşılıqlı münasibətlərini tədqiq etməkdə proses kimi.	1. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.563-571 2. Erdoğan Merçil. Müslüman türk devletleri tarihi. Ankara, TTK, 2006, S.195-205 3. Kamuran Gürün. Türkler ve türk devletleri tarihi. Ankara: Karacan yayınları, 1981 s.374-392
		Mövzu 12. Əyyubilər dövləti **Qısa icmalı:** Əyyubi ailəsinin hərbi-siyasi rolu. Səlahəddin Əyyubi Fatimi vəziri kimi. Əyyubi dövlətinin qurulması. Səlib yürüşlərinə qarşı mübarizə və Hittin savaşı. Qüdsün ələ keçirilməsi. Səlahəddinin şərq səfərləri. Misir Əyyubilərinin zəifləməsi və süqutu. Əyyubi dövrü siyasi idarəetmə forması. Ədliyyə təşkilatları. Ordu tərkibi və hərbi struktur. Memarlıq və incəsənətin digər sahələri. Dini elmlər. Tətbiqi və dəqiq elmlərin inkişafı	1. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.239-399 2. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.91-94 3. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. S.223-227

			4. Kamuran Gürün. Türkler ve türk devletleri tarihi. Ankara: Karacan yayınları, 1981. S.374-392
7		**Mövzu 13. QUİZ (I)**	
		Mövzu 14. Türklərin islamlaşma prosesi. **Qısa icmalı:** Erkən ərəb və İslam mənbələrində türklər haqqında məlumatlar. Əməvilər və Abbasilər dövrü Türk-müsəlman münasibətləri. Talas müharibəsi. Türk valilərin qurduqları dövlətlər. Erkən türk dövlətləri problemi.	1. Əsməd Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 2013. S.173-181 2. Nesimi Yazıcı. İlk türk-islam devletleri tarihi. Ankara, 1992. S.12-35 3. Kamuran Gürün. Türkler ve türk devletleri tarihi. Ankara: Karacan yayınları, 1981. S. 263-269 4. Hüseyn Yurdaydın. İslam tarihi dersleri. Ankara, 1971. S.55-56
8		**Mövzu 15. Qaraxanilər dövlətinin siyasi və mədəniyyət tarixi** **Qısa icmalı:** Qaraxanlıların mənşəyi. Satuq Buğra Xan dövrü. Şərqi və qərbi Qaraxanlılar. Dövlət idarəetmə sistemi. Qaraxanlılarda İslam mədəniyyəti	1. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.473-477 2. Əsməd Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 2013. S.189-193 3. Nesimi Yazıcı. İlk türk-islam devletleri tarihi. Ankara, 1992. S. 80-108 4. Erdoğan Merçil. Müslüman türk devletleri tarihi. Ankara, TTK, 2006, S.31-44 5. Kamuran Gürün. Türkler ve türk devletleri tarihi. Ankara: Karacan

			yayınları, 1981. S.269 – 282 6. Hüseyn Yurdaydın. İslam tarihi dersleri. Ankara, 1971. 56-58
		Mövzu 16. Davamı	
		Aralıq İmtahanı	
9		**Mövzu 17. Qəznəvilər dövlətinin siyasi və mədəniyyət tarixi** **Qısa icmalı:** Qəznəvilər dövlətinin mənşəyi. Qəznəvilərin quruluşu. Hindistan səfərləri. Qəznəvilərdə dövlət təşkilatı. Qəznəvilərdə elm, memarlıq və incəsənətin digər sahələri	1. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.477-485 2. Əsməd Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 2013. S.186-189 3. Nesimi Yazıcı. İlk türk-islam devletleri tarihi. Ankara, 1992. S. 108-125 4. Erdoğan Merçil. Müslüman türk devletleri tarihi. Ankara, TTK, 2006, S.44-52 5. Kamuran Gürün. Türkler ve türk devletleri tarihi. Ankara: Karacan yayınları, 1981. S. 282-292 6. Hüseyn Yurdaydın. İslam tarihi dersleri. Ankara, 1971. 58-60, 265-273

		Mövzu 18. Səlcuqlu dövlətinin siyasi və mədəniyyət tarixi **Qısa icmalı:** Səlcuqluların mənşəyi. Səlcuqlu dövlətinin qurulması. Yüksəliş dövrü. Toğrul, Alparslan və Məlikşahın hakimiyyəti. Tənəzzül və süqut dövrü. Səlcuqlu dövlətində elm və mədəniyyət. İdarəetmə sistemi. İqtisadi və ictimai həyat	1. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.491-515 2. Erdoğan Merçil. Müslüman türk devletleri tarihi. Ankara, TTK, 2006, S.52-174 3. Nesimi Yazıcı. İlk türk-islam devletleri tarihi. Ankara, 1992. S. 80-108 4. Kamuran Gürün. Türkler ve türk devletleri tarihi. Ankara: Karacan yayınları, 1981. S.292-338 5. Hüseyn Yurdaydın. İslam tarihi dersleri. Ankara, 1971. S.60-79
10		**Mövzu 19. Azərbaycanda qurulmuş Türk-İslam dövlətləri** (IX-XI əsrlər) **Qısa icmalı:** Sacilər. Salarilər. Şirvanşahlar. Rəvvadilər. Şəddadilər. Tiflis əmirliyi. Dərbənd əmirliyi. Azərbaycanda İslam mədəniyyəti	1.Nesimi Yazıcı. İlk türk-islam devletleri tarihi. Ankara, 1992. S. 49-56 2.Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.395-399 3.İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.86-88, 127-140, 187-200
		Mövzu 20. Azərbaycanda qurulmuş Türk-İslam dövlətləri – 2 (XIII-XV əsrlər) **Qısa icmalı:** Elxanilər. Cəlairilər. Şirvanşahlar. Qaraqoyunlular. Ağqoyunlular. Azərbaycanda İslam mədəniyyəti	1.Nesimi Yazıcı. İlk türk-islam devletleri tarihi. Ankara, 1992. S. 49-56 2.Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.395-399 3.İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri

			feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.86-88, 127-140, 187-200
11		**Mövzu 21. Teymurilər dövlətinin siyasi və mədəniyyət tarixi** **Qısa icmalı:** Əmir Teymurun yürüşləri. Əmir Teymurdan sonra övladlarının hakimiyyəti. Əmir Teymur dövründə Orta Asiyada İslam mədəniyyəti	1. Əsməd Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 2013. S.361-373 2. Erdoğan Merçil. Müslüman türk devletleri tarihi. Ankara, TTK, 2006, S.44-52
		Mövzu 22. Məmlük dövlətinin siyasi və mədəniyyət tarixi **Qısa icmalı:** Məmlük dövlətinin yaranması. Monqol yürüşlərinə qarşı Məmlük mübarizəsi. Məmlüklar Abbasi xilafətinin hamisi kimi. Osmanlı-Məmlük münasibətləri. Məmlük dövlətinin süqutu. Məmlük dövlətində idarəetmə və siyasi təşkilatlar. Ədliyyə təşkilatları. Dini elmlər. Dəqiq və tətbiqi elmlərin inkişafı. Memarlıq və incəsənətin xüsusiyyətləri. Məmlük dövrü dini və mülki memarlıq nümunələri.	1. Əsməd Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 2013. S.361-373 3. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. S.140-146 3. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.441-447 4. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. s.227-233
12		**Mövzu 23. QUİZ (II)**	
		Mövzu 24. Qızıl Orda dövlətinin siyasi və mədəniyyət tarixi. **Qısa icmalı:** Qızıl Orda dövlətinin yaranması. Qızıl Ordada İslamın yayılması. Bərkə. Özbəkin dövründə İslamın rəsmi din elan edilməsi. Noqay ordası və Şərqi Avropada islamın yayılması. Qızıl Ordanın süqutunun İslam dünyasına təsiri. Qızıl Orda şəhərləri. Elm və mədəniyyət.	1.Əsməd Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 2013. 343-357

13		**Mövzu 25. Osmanlı dövlətinin siyasi və mədəniyyət tarixi-1** **Qısa icmalı:** Osmanlının mənşəyi. Orxan bəyin siyasi fəaliyyətləri. I Murad dövrü Osmanlı-Qaramanoğulları münasibətləri. İldırım Bəyazid dövrü. II Murad dövrü xarici siyasət. Fatih Sultan Mehmet dövrü. İstanbulun fəthi. Yavuz Sultan Səlim dövrü Osmanlının siyasi coğrafiyası. Qanuni Sultan Süleyman dövrü siyasi və iqtisadi vəziyyət.	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.292-333 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.571-597 3. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. s.233-260 4. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. s.146-187
		Mövzu 26. Səfəvi dövlətinin siyasi və mədəniyyət tarixi-1 **Qısa icmalı:** Şah İsmayıl. Şah Təhmasib. Osmanlı-Səfəvi döyüşləri. Şah Məhəmməd Xudabəndə. İdeologiya. Elm. memarlıq və mədəniyyət.	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.265-292 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.515-563 3. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. s.260-276 4. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. s.202-221
14		**Mövzu 27. Səfəvi dövlətinin siyasi və mədəniyyət tarixi-2** **Qısa icmalı:** Şah Abbas. Şah Səfi. Sultan Hüseyn. Səfəvilərin süqutu. Mədəniyyət.	. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.265-292 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.515-563 3. Nərgiz Axundova. Asiya və Afrika

			ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. s.260-276 4. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. s.202-221
		Mövzu 28. Osmanlı dövlətinin siyasi və mədəniyyət tarixi-2 **Qısa icmalı:** Osmanlının zəifləmə və geriləmə dövrü. II Əbdülhəmid dövrü siyasi vəziyyət. Osmanlının süqut səbəbləri. Mədəniyyət. Elm. Memarlıq	1. Abbas Qurbanov. İslam tarixi II. Bakı, 2009. s.333-361 2. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2013. s.597-608 3. Nərgiz Axundova. Asiya və Afrika ölkələrinin orta əsrlər tarixi. Bakı, 2010. s.233-260 4. İsrail Əmirli. Yaxın Orta Şərq ölkələri feodalizm dövründə (III – XVII əsrlər). Bakı, 2016. s.146-187
15		**Mövzu 29. Babur – Moğol dövlətinin siyasi və mədəniyyət tarixi** **Qısa icmalı:** Babur dövlətinin yaranması. Əkbər şah islahatları. Aurəngəzəbin fəthləri. Babur imperiyasının zəifləməsi. Memarlıq. Mədəniyyət	1.Hüseyn Yurdaydın. İslam tarihi dersleri. Ankara, 1971. S.287-330 2.Erdoğan Merçil. Müslüman türk devletleri tarihi. Ankara, TTK, 2006, S.314-333
		Mövzu 30. Davamı	
Final İmtahanı			